MÜLKİ AVİASİYADA UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİ ÜZRƏ DÖVLƏT MÜFƏTTİŞLİYİ

PUBLİK HÜQUQİ ŞƏXS

Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı

31 dekabr 2023-cü il tarixdə başa çatmış il üçün

MÜLKİ AVİASİYADA UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİ ÜZRƏ DÖVLƏT MÜFƏTTİŞLİYİ

MALİYYƏ HESABATLARI ÜZRƏ AUDİT HESABATI
31 DEKABR 2023-CÜ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN

MÜNDƏRİCAT		Səhifə
MALİYYƏ HESABATLARI ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ İLƏ BAĞLI BƏYANAT		2
MÜSTƏQİL AUDİTORUN RƏYİ		3
MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT		6
MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT		7
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT		8
PUL AXINLARI HAQQINDA HESABAT		9
MALİYYƏ HESABATLARINA QEYDLƏR		
1	MÜQƏDDİMƏ	10
2	MALİYYƏ HESABATLARININ TƏRTİBATININ ƏSASLARI	12
3	MÜHÜM UÇOT SİYASƏTLƏRİNİN İCMALI	13
4	PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ	22
5	DEBİTOR BORCLAR	22
6	DİGƏR CARİ AKTİVLƏR	22
7	TORPAQ, TİKİLİ VƏ AVADANLIQLAR	23
8	QEYRİ-MADDİ AKTİVLƏR	24
9	KREDİTOR BORCLAR	24
10	DİGƏR CARİ ÖHDƏLİKLƏR	25
11	NİZAMNAMƏ KAPİTALI	25
12	GƏLİRLƏR	25
13	DİGƏR GƏLİRLƏR VƏ XƏRCLƏR	26
14	XÜSUSİ İCAZƏ RƏYLƏRİNİN VERİLMƏSİ ÜZRƏ XİDMƏT HAQQI	26
15	AGENT KOMİSSİYA HAQQI	27
16	ƏMƏK HAQQI VƏ ONUNLA BAĞLI XƏRCLƏR	27
17	İNZİBATİ XƏRCLƏR	27
18	MƏNFƏƏT VERGİSİ	27
19	ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ TƏHƏDDÜDLƏR	28
20	MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ	29
21	MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ	32
22	ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR VƏ QALIQLAR	33
23	HESABAT TARİXİNDƏN SONRAKI HADİSƏLƏR	33

MÜLKİ AVİASİYADA UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİ ÜZRƏ DÖVLƏT MÜFƏTTİŞLİYİ

MALİYYƏ HESABATLARI ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ İLƏ BAĞLI BƏYANAT

31 DEKABR 2023-CÜ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN

Aşağıdakı bəyanat, 3-cü səhifədə göstərilmiş müstəqil auditorların hesabatında auditorların məsuliyyətləri haqqında müddəalarla birgə oxunmalıdır və Dövlət Mülki Aviasiya Agentliyi ("Agentlik") tabeliyində Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi Üzrə Dövlət Müfəttişliyi publik hüquqi şəxsinin (bundan sonra "Müfəttişlik") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq məsuliyyət bölgüsünü əks etdirmək məqsədini daşıyır.

Müfəttişliyin 31 dekabr 2023-cü il tarixdə başa çatmış il üzrə maliyyə vəziyyətini, fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) tələblərinə cavab verməklə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə rəhbərlik məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədə uyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə qanunvericilik tələblərinə riayət olunması və;
- Yaxın gələcəkdə Müfəttişliyin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi ehtimalı ilə hesabat tarixinə maliyyə hesabatlarını "fəaliyyətin davamlılığı" prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Müfəttişliyin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Müfəttişliyin maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Müfəttişliyin aktivlərinin mühafizə edilməsinin təşkil olunması və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2023-cü il tarixdə başa çatmış il üzrə maliyyə hesabatları Müfəttişliyin İdarə Heyətinin sədri və Maliyyə-İqtisad İdarəsinin rəisi tərəfindən 28 iyun 2024-cü il tarixdə təsdiq edilmişdir.

Rəhbərlik adından:

Ramil Məmmədov
İdarə Heyətinin sədri
28 iyun 2024

Zaur Həmidov
Maliyyə-İqtisad İdarəsinin rəisi

HLB Azərbaycan MMC
Time Biznes Mərkəz
8-ci mərtəbə
4-cü tramvay küçəsi, AZ1010
Bakı, Azərbaycan
T: +994 (12) 310 04 56
E: office@hlb.az

MÜSTƏQİL AUDİTORUN HESABATI

Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi Publik Hüquqi Şəxsin Təsisçisi və İdarə Heyətinə:

Rəy

Biz, Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi Publik Hüquqi Şəxsin (bundan sonra "Müfəttişlik" adlandırılacaq) 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixlərdə başa çatan il üzrə məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin təsviri və digər izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Müfəttişliyin 31 dekabr 2023-ci il tarixinə maliyyə vəziyyətini, habelə həmin tarixlərdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından düzgün əks etdirir.

Diqqət çəkən məsələlər

İlkin qalıqlar

31 dekabr 2022-ci il tarixdə başa çatmış il üçün maliyyə hesabatlarının auditi "UHY Aduit" MMC tərəfindən həyata keçirilmişdir və 1 may 2023-cü il tarixdə "Müsbət rəy" verilmişdir.

İlkin qalıqların və müqayisəli rəqəmlərin audit olunması bizim audit tapşırığımıza daxil deyil və biz ilkin qalıqları maliyyə hesabatlarının məzmununa əhəmiyyətli təsir edən sahələrdə yoxlamışıq. Ona görə də biz ilkin qalıqlar və müqayisəli rəqəmlər, əlaqəli rəqəmlərin artan yekunla maliyyə hesabatlarına təsiri ilə bağlı yalnız bizim audit tapşırına daxil olan sahələrdə əminlik veririk və bu da əvvəlki ilin maliyyə hesabatları ilə bağlı bütövlükdə hansısa bir əminlik ifadə etmir.

Rəy üçün Əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar üzrə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının mühasiblər üçün dərc etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Müfəttişlikdən asılı deyilik və biz digər etik öhdəliklərimizi və MBESŞ məcəlləsinin tələblərini yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə Hesabatlarına görə Rəhbərliyin və İqtisadi Subyektin İdarə Edilməsinə Cavabdeh olan Səlahiyyətli Şəxslərin Məsuliyyəti

Rəhbərlik bu maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

İlkin Maliyyə hesabatlarını hazırladığı zaman, rəhbərlik Müfəttişliyi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Müfəttişliyin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Müfəttişliyin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət edilməsinə görə məsuliyyət daşıyır.

İlkin Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- İlkin Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər,
- Müfəttişliyin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük,
- İstifadə edilmiş üçöt siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk,
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Müfəttişliyin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Müfəttişliyin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər,
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilmədiyini qiymətləndiririk.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

Müfəttişliyin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməmənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatında təsvir edirik.

28 iyun 2024

HLB Azərbaycan MMC

HLB Azerbaycan



MÜLKİ AVİASİYADA UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİ ÜZRƏ DÖVLƏT MÜFƏTTİŞLİYİ

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
31 DEKABR 2023-CÜ İL TARİXƏ
(Azərbaycan manatı ilə)

	Qeyd	31 dekabr 2023	31 dekabr 2022	31 dekabr 2021
AKTİVLƏR				
Cari aktivlər				
Pul vəsaitləri və onların ekvivalentləri	4	6,563,978	4,961,021	1,324,317
Əsas fəaliyyət üzrə debitor borclar	5	1,051,555	758,148	2,771,230
Digər cari aktivlər	6	35,295	154,961	203,774
		7,650,828	**5,874,130**	**4,299,321**
Uzunmüddətli aktivlər				
Torpaq, tikili və avadanlıqlar	7	174,296	185,708	208,484
Qeyri-maddi aktivlər	8	105,000	124,572	144,780
		279,296	**310,280**	**353,264**
CƏMİ AKTİVLƏR		**7,930,124**	**6,184,410**	**4,652,585**
KAPİTAL VƏ ÖHDƏLİKLƏR				
Cari öhdəliklər				
Kreditor borclar	9	1,342,482	897,387	914,366
Mənfəət vergisi üzrə öhdəlik	18	182,000	657,304	62,000
Digər cari öhdəliklər	10	157,192	157,957	105,819
		1,681,674	**1,712,648**	**1,082,185**
Uzunmüddətli öhdəliklər				
Təxirəsalınmış vergi	18	11,241	7,766	33,733
Cəmi öhdəliklər		**1,692,915**	**1,720,414**	**1,115,918**
Kapital				
Nizamnamə kapitalı	11	1,000,000	1,000,000	1,000,000
Bölüşdürülməmiş mənfəət		5,237,209	3,463,996	2,536,667
Kapital ehtiyatları		-	-	
		6,237,209	**4,463,996**	**3,536,667**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR		**7,930,124**	**6,184,410**	**4,652,585**

Rəhbərlik adından

Ramil Məmmədov
İdarə Heyətinin sədri

Zaur Həmidov
Maliyyə-İqtisad İdarəsinin rəisi

28 iyun 2024

1-23 Qeydlərdə əks etdirilmiş məlumatlar bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

MÜLKİ AVİASİYADA UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİ ÜZRƏ DÖVLƏT MÜFƏTTİŞLİYİ

MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT
31 DEKABR 2023-CÜ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN
(Azərbaycan manatı ilə)

	Qeyd	2023	2022
Xidmətlərin göstərilməsindən gəlirlər	12	6,236,628	5,411,695
		6,236,628	**5,411,695**
Əməliyyat xərcləri			
Əmək haqqı və onunla bağlı xərclər	16	(2,907,621)	(2,893,951)
Xüsusi icazə rəylərinin verilməsi üzrə xidmət haqqı	14	(422,940)	(394,226)
Agent komissiya xərci	15	(159,964)	(126,638)
Köhnəlmə və amortizasiya	7	(83,634)	(72,179)
İnzibati xərclər	17	(273,331)	(323,519)
		(3,847,490)	**(3,810,513)**
Əməliyyat mənfəəti		**2,389,138**	**1,601,182**
Məzənnə fərqindən yaranan gəlirlər	13	956	3,985
Zərərin qarşılanması üçün sığortadan daxil olan vəsait	13	1,105	-
Ehtiyatların qiymətləndirilməsində yaranan fərq	13	740	-
		2,801	**3,985**
Vergidənqabaq mənfəət/(zərər)		**2,391,939**	**1,605,167**
Mənfəət vergisi	18	(618,726)	(677,838)
İl üçün mənfəət/(zərər)		**1,773,213**	**927,329**
Digər məcmu gəlir və xərclər		-	-
İl üçün məcmu gəlir/(zərər)		**1,773,213**	**927,329**

Rəhbərlik adından

Ramil Məmmədov
İdarə Heyətinin sədri

Zaur Həmidov
Maliyyə-İqtisad İdarəsinin rəisi

28 iyun 2024

1-23 Qeydlərdə əks etdirilmiş məlumatlar bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

MÜLKİ AVİASİYADA UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİ ÜZRƏ DÖVLƏT MÜFƏTTİŞLİYİ

KAPİTALIN HƏRƏKƏTİ HAQQINDA HESABAT
31 DEKABR 2023-CÜ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN
(Azərbaycan manatı ilə)

	Nizamnamə Kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi Kapital
01.01.2022-ci il tarixə	**1,000,000**	**2,536,667**	**3,536,667**
İl üzrə məcmu gəlir	-	927,329	927,329
31.12.2022-ci il tarixə	**1,000,000**	**3,463,996**	**4,463,996**
İş üzrə məcmu gəlir	-	**1,773,213**	**1,773,213**
31.12.2023-cü il tarixə	**1,000,000**	**5,237,209**	**6,237,209**

Rəhbərlik adından

Ramil Məmmədov
İdarə Heyətinin sədri
28 iyun 2024

Zaur Həmidov
Maliyyə-İqtisad İdarəsinin rəisi

1-23 Qeydlərdə əks etdirilmiş məlumatlar bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

MÜLKİ AVİASİYADA UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİ ÜZRƏ DÖVLƏT MÜFƏTTİŞLİYİ

PUL AXINLARI HAQQINDA HESABAT
31 DEKABR 2023-CÜ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN
(Azərbaycan manatı ilə)

	Qeyd	2023-cü il	2022-ci il
Əməliyyat fəaliyyəti ilə bağlı pul axınları			
Xidmətlərin göstərilməsindən daxilolmalar	12	5,943,416	7,424,777
Digər daxilolmalar	13	1,105	594
Əməliyyatlardan yaranan pul vəsaitləri		**5,944,521**	**7,425,371**
İşçi heyəti ilə bağlı ödənişlər	16	(2,846,055)	(2,635,981)
Agent komissiya xərci ilə bağlı ödənişlər	15	(185,085)	(147,748)
Xüsusi icazə rəylərinin verilməsi üzrə xidmət haqqı ödənişləri	14	(86,999)	(113,300)
Digər ödənişlər		(1,171,731)	(862,175)
Əməliyyatlar üzrə ödənişlərin cəmi		**(4,289,870)**	**(3,759,204)**
Əməliyyat fəaliyyətindən əldə edilən xalis pul axınları		**1,654,651**	**3,666,167**
İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları			
Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin əldə edilməsi	7,8	(52,650)	(29,195)
İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul axınları		**(52,650)**	**(29,195)**
Maliyyə fəaliyyəti ilə bağlı pul axınları			
Maliyyə fəaliyyətinə yönəldilmiş xalis pul axınları		-	-
Xarici valyuta çevirmələrinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri	13	956	(268)
Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım		**1,602,957**	**3,636,704**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri	4	4,961,021	1,324,317
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	4	**6,563,978**	**4,961,021**

Ramil Məmmədov
İdarə Heyətinin sədri

Zaur Həmidov
Maliyyə-İqtisad İdarəsinin rəisi

28 iyun 2024

1-23 Qeydlərdə əks etdirilmiş məlumatlar bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

MÜLKİ AVİASİYADA UÇUŞLARIN TƏHLÜKƏSİZLİYİ ÜZRƏ DÖVLƏT MÜFƏTTİŞLİYİ PHŞ

MALİYYƏ HESABATLARINA QEYDLƏR
31 DEKABR 2023-CÜ İL TARİXDƏ BAŞA ÇATMIŞ İL ÜÇÜN
(Azərbaycan manatı ilə)

1. MÜQƏDDİMƏ

Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxs (bundan sonra–Müfəttişlik) "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 fevral tarixli 1223 nömrəli Fərmanına əsasən yaradılmışdır.

"Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 fevral tarixli 1223 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2150 nömrəli Fərmanı ilə Dövlət Müfəttişliyi "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin" tabeliyinə keçmişdir.

Müfəttişlik publik hüquqi şəxsdir, müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

Müfəttişliyin saxlanması və fəaliyyətinin təmin edilməsi xərcləri onun fəaliyyətindən əldə edilən gəlirlər (o cümlədən, aldığı kreditlər, qrantlar, habelə işlərin görülməsindən, xidmətlərin göstərilməsindən daxilolmalar və s.) hesabına maliyyələşdirilir. Uçuşların təhlükəsizliyini təmin etmək məqsədi ilə Müfəttişliyin göstərdiyi xidmətlərin və gördüyü işlərin qiymətlərini Agentlik müəyyən edir.

Müfəttişlik publik hüquqi şəxs kimi ilk dəfə Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən 09.08.2017-ci il tarixdə 1201884591 nömrəsi ilə qeydiyyata alınmışdır.

Dövlət qeydiyyat idarəsinin 10.02.2023-ci il tarixli çıxarışı ilə dəyişiklik edilmiş və Müfəttişliyin yeni hüquqi təmsilçisi kimi Məmmədov Ramil Vahid oğlu qeydiyyata alınmışdır.

Dövlət qeydiyyat idarəsinin 03.07.2023-cü il tarixli çıxarışı ilə Müfəttişliyin adında dəyişiklik edilmiş, "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyində Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" Publik Hüquqi şəxsi olaraq qeyd olunmuş və hüquqi təmsilçisi Məmmədov Ramil Vahid oğlu qeydiyyata alınmışdır.

31 dekabr 2023 və 2022-ci il tarixlərinə Müfəttişliyin Nizamnamə fondunun təsisçi strukturu aşağıdakı kimi olmuşdur:

Təsisçi	31-dek- 2023 Təsis payı, %	31-dek-2022 Təsis payı, %	31-dek-2021 Təsis payı, %
Azərbaycan Respublikası	100	100	100
Yekun	**100**	**100**	**100**

Müfəttişliyin fəaliyyətinin məqsədi və istiqamətləri

Müfəttişliyin fəaliyyətinin məqsədi aviasiya qəzaları və insidentləri baş vermədən, insanların həyatına, sağlamlığına və əmlakına zərər vurulmadan və bütövlükdə hər hansı narahatçılığa yol verilmədən uçuşların təhlükəsizliyinin daha səmərəli təşkilinin təmin edilməsindən ibarətdir.

- Müfəttişlik Nizamnaməsində göstərilən məqsədə uyğun olaraq aşağıdakı istiqamətlərdə

fəaliyyət göstərir:

- Azərbaycan Respublikasının hüdudlarında mülki aviasiya sahəsində uçuşların təhlükəsizliyinin təmin edilməsi;
- aviasiya texnikasının səmərəli istifadəsi və istismarı;
- aviasiya subyektləri tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən xidmətlərin Beynəlxalq Mülki Aviasiya Təşkilatının (bundan sonra ICAO) tələblərinə uyğunluğunun təmin edilməsi.

Müfəttişliyin idarə olunması

Müfəttişliyin idarəetmə orqanı İdarə Heyətidir. İdarə Heyəti sədrdən və onun iki müavinindən ibarətdir. İdarə Heyətinin sədrini və onun iki müavinini 5 (beş) il müddətinə Agentliyin direktoru vəzifəyə təyin və vəzifədən azad edir. Müfəttişliyin İdarə Heyəti:

- Agentliyə hesabat verir və Agentliyin qərarlarını icra edir;
- müvafiq idarəetmə və nəzarət sistemlərini tətbiq edir və həmin sistemlərin səmərəliliyi barədə Agentliyə hesabat verir;
- Müfəttişliyin fəaliyyətinə dair daxili qaydaları, idarəetmə prosedurlarını, habelə struktur bölmələrinin, strukturuna daxil olan qurumların və tabeliyindəki digər qurumların (hüquqi şəxslərin, təşkilatların və s.) əsasnamələrini və nizamnamələrini (törəmə publik hüquqi şəxslər istisna olmaqla) hazırlayır və təsdiq olunması üçün Agentliyə təqdim edir;

Müfəttişliyin nizamnamə fondu, əmlakı və maliyyə-təsərrüfat fəaliyyəti

Müfəttişliyin əmlakı nizamnamə fondundan, ona təsisçilər tərəfindən verilmiş digər əmlakdan, fəaliyyət istiqamətlərinə uyğun olaraq görülən işlərdən, göstərilən xidmətlərdən əldə edilən daxilolmalardan, ianələrdən, qrantlardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır. Müfəttişliyin əmlakı onun balansında göstərilir.

Müfəttişliyin nizamnamə fondu 1.000.000 (bir milyon) manatdır. Müfəttişliyin nizamnamə fondunun artırılması və ya azaldılması Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Müfəttişliyin smetası və illik maliyyə hesabatları Agentlik tərəfindən təsdiq edilir.

Müfəttişlik balansında və istifadəsində olan əmlakın saxlanılmasına, qorunmasına və ondan səmərəli istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Müfəttişliyin əmlakından Nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün istifadə edilə bilməz.

Müfəttişlik bilavasitə mənfəət əldə etmək məqsədi güdmür.

Müfəttişlik Agentliyin razılığı əsasında təsərrüfat cəmiyyətlərini yarada və ya onlarda iştirak edə bilər.

Müfəttişliyin strukturu

Müfəttişliyin strukturu rəhbərlik və aparatdan ibarətdir.

Rəhbərlik - Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi"nin İdarə Heyətidir.

Aparat - Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi"nin departamentləri və idarələridir.

2. MALİYYƏ HESABATLARININ TƏRTİBATININ ƏSASLARI

2.1 Tərtibatın əsasları. Maliyyə alətlərinin ədalətli dəyərlə ilkin tanınmasını, satıla biləcək maliyyə aktivlərinin yenidən qiymətləndirilməsini və maliyyə alətlərin mənfəət və zərərdə əks olunmaqla ədalətli dəyərlə hesablanmasını təmin etməklə, bu maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) əsasən, tarixi dəyər prinsipləri üzərində hazırlanmışdır.

Bu hesabatların tərtib olunmasında istifadə olunan əsas uçot siyasətləri aşağıdakı kimidir. Bu uçot siyasətləri davamlı və müvafiq şəkildə tətbiq olunmuşdur.

Müfəttişlik mühasibat sistemini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) tələblərinə cavab verməklə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təşkil edir. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu qanunvericiliyi əsasında hazırlanmış və düzəlişlər nəticəsində MHBS-ə uyğunlaşdırılmışdır. Zəruri hallarda, müəyyən müqayisəli rəqəmlər cari ilin təqdimatı əsasında maliyyə hesabatlarının daha müqayisəli olmasını asanlaşdırmaq üçün yenidən təsnifləşdirilmişdir.

2.2 Funksional və təqdimat valyutası. Müfəttişliyin maliyyə hesabatlarına daxil olan maddələr Müfəttişliyin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitdə tətbiq olunan valyuta ilə ölçülmüşdür ("funksional valyuta").

Maliyyə hesabatları Müfəttişliyin həm funksional, həm də təqdimat valyutası olan Azərbaycan Manatı (AZN) ilə göstərilmişdir.

2.3 Əhəmiyyətli təxminlər və mühakimələr. Təsdiq olunmuş uçot standartlarına əsasən hesabatların hazırlanması zamanı müəyyən təxminlər etmək tələb olunur. Bu, həmçinin, Müfəttişliyin rəhbərliyindən uçot siyasətlərinin tətbiqi zamanı öz mühakimələrinə əsaslanmasını tələb edir. Bu təxminlər və mühakimələr davamlı olaraq qiymətləndirilir və onların müvafiq şəraitlərdə məqsədə uyğun olması təmin edilir.

Aşağıdakı maddələrdə Müfəttişliyin maliyyə hesabatları üçün əhəmiyyət daşıyan istiqamətlər üzrə müəyyən təxminlər və qiymətləndirmələr, uçot siyasətlərinin tətbiqi zamanı əsaslanan mühakimələr sadalanmışdır.

a) Vergilər. Müfəttişliyin mənfəət vergisi və digər vergilər üzrə öhdəliklərinin hesablanmasında rəhbərlik hazırki vergi qanunvericiliyini əsas götürmüşdür.

b) Köhnəlmə, amortizasiya və əsas vəsaitlərin yenidən qiymətləndirilməsi. Köhnəlmə və ya amortizasiya metodlarının müəyyən edilməsində rəhbərlik vəsaitlərdən əldə ediləcək iqtisadi faydanın Müfəttişliyin daxil olmasını əsas götürmüşdür.

3. MÜHÜM UÇOT SİYASƏTLƏRİNİN İCMALI

3.1 Uçot siyasəti və açıqlamalarda dəyişikliklər

3.1.1. Müfəttişlik tərəfindən qəbul edilmiş yeni standartlar, şərhlər və mövcud standartlara dəyişikliklər

Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (MUBSŞ) tərəfindən dərc edilmiş və 01 yanvar 2022-ci il və ondan sonra başlayan tarixdə qüvvəyə minən aşağıdakı yeni standartlar, şərhlər və mövcud standartlara dəyişikliklər Müfəttişlik tərəfindən tətbiqi zəruri olduğu hallarda qəbul edilmişdir.

3 saylı MHBS-yə düzəlişlər - "Konseptual əsaslara istinad"

"Müəssisələrin birləşməsi" adlı 3 saylı MHBS-yə düzəlişlərin mahiyyəti aşağıdakılardan ibarətdir:

- 3 saylı MHBS-ni yenilənir və 1989-cu il Çərçivəsi əvəzinə 2018-ci ilin Konseptual Çərçivəsinə istinad edilir.
- 3 saylı MHBS-yə tələb əlavə edirlir ki, 37 saylı MUBS "Ehtiyatlar, Şərti Öhdəliklər və Şərti Aktivlər" və 21 saylı BMHŞK "Məcburi tutulmalar" əhatə dairəsində olan əməliyyatlar və digər hadisələr üçün alıcı müəssisə, müəssisələrin birşləşməsi zamanı yarana biləcək öhdəlikləri müəyyən etmək məqsədilə "Konseptual əsaslara istinad" əvəzinə 37 saylı MUBS-u və 21 saylı BMHŞK tətbiq etsin.
- 3 saylı MHBS-yə birbaşa müddəa əlavə edilir ki, müəssisələrin birləşməsi zamanı şərti aktivlər tanınmır.

16 saylı MUBS-a düzəlişlər - "Əmlak, qurğu və avadanlıqlar: nəzərdə tutulan istifadədən daxil olmalar"

Bu düzəlişə görə müəssisələrə, əmlak, qurğu və avadanlıq obyektinin maya dəyərindən, həmin aktivi rəhbərlik tərəfindən nəzərdə tutulmuş qaydada fəaliyyət göstərə bilməsi üçün zəruri olan yerə və vəziyyətə gətirilərkən istehsal olunan maddələrin satışından əldə olunan daxilolmaların çıxılması qadağan edilir. Nəticə etibarilə, müəssisə bu cür satış gəlirlərini və əlaqədar xərcləri mənfəət və ya zərərdə tanıyır. Müəssisə ehtiyatlar haqqında 2 saylı MUBS-ə uyğun olaraq həmin maddələrin dəyərini ölçür.

Düzəlişlər həmçinin "aktivin düzgün işləməsinin yoxlanılması"nın mənasını aydınlaşdırır. 16 saylı MUBS indi bunu aktivin texniki və fiziki göstəricilərinin onun mal və ya xidmətlərin istehsalında və ya tədarükündə, başqalarına icarəyə verilməsində və ya inzibati məqsədlər üçün istifadə oluna biləcək səviyyədə olub-olmamasının qiymətləndirilməsi kimi müəyyən edir.

Əgər məcmu gəlir haqqında hesabatda ayrıca təqdim edilməzsə, maliyyə hesabatları müəssisənin adi fəaliyyətinin nəticəsi olmayan istehsal edilmiş maddələrə aid olan mənfəət və ya zərərə daxil edilən gəlir və dəyərin məbləğlərini və bənd(lər)i açıqlamalıdır.

37 saylı MUBS-yə düzəlişlər - "Yüklü edilmiş müqavilələr – müqavilənin yerinə yetirilməsi xərcləri"

37 saylı MUBS-yə dəyişikliklər müəyyən edir ki, müqavilənin yerinə yetirilməsi xərci "birbaşa müqaviləyə aid olan xərcləri" əhatə edir. Birbaşa müqaviləyə aid olan məsrəflər həm həmin müqavilənin icrası üzrə birbaşa dəyişən məsrəflərdən (məsələn, birbaşa əmək və ya materiallar ola bilər), həm də müqavilələrin

tam yerinə yetirilməsi ilə birbaşa əlaqəli olan digər məsrəflərin bölüşdürülməsindən (məsələn, müqavilənin icrasında istifadə olunan əsas vəsait, tikili və avadanlıqlar üçün amortizasiya ayırmalarının bölüşdürülməsi) ibarətdir.

MHBS 16 "İcarə müqavilələri"

MHBS 16 "icarə müqavilələri" 01 yanvar 2019-cu il tarixdən qüvvəyə mindiyi və maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərdiyi üçün ətraflı şərh verilir. 2016-cı ildə dərc edilmiş və ilkin tətbiqi 01 yanvar 2019-cu il tarixdən qüvvəyə minən MHBS 16 "İcarə müqavilələri" standartına əsasən icarə əməliyyatlarının uçotunda əhəmiyyətli dəyişiklik etmişdir. Dəyişiklik Mühasibat Uçotunun Beynəlxalq Standartı (MUBS) 17 göstərilən əməliyyat və maliyyə icarəsi arasında fərqi aradan götürür.

(a) İcarəinin tanınması və ölçülməsi

Aktiv maliyyə icarəsinə götürüldüyü halda, icarə müddəti üçün icarə ödənişlərinin diskontlaşdırılmış cari dəyərinin yekunu kreditor borc kimi və eyni zamanda uzunmüddətii aktiv kimi maliyyə hesabatlarında tanınır.

Maliyyə hesabatında tanınmış uzunmüddətli aktivə faydalı istifadə müddətinə və ya icarə müddətinə mütənasib (hansı daha qısa olarsa) köhnəlmə hesablanaraq cari dövrün xərclərinə aid edilir.

(b) İcarənin başlanğıcı.

İcarənin başlanğıcı kimi icarə müqaviləsinin tarixi və ya öhdəlik tarixindən ən öncə olanı hesab edilir.

Bu izahın məqsədləri üçün öhdəlik yazılı, əməliyyata daxil olan tərəflər tərəfindən imzalı olmalı və xüsusilə, əməliyyatın əsas şərtləri əksini tapmış olmalıdır.

(c) İcarə müddətinin başlanması.

İcarə müddətinin başlanması tarixi icarəyə götürənin icarə predmeti üzərində istifadə hüququnu əldə etdiyi tarix hesab edilir. Bu, icarənin ilkin tanındığı tarixdir.

Standartın spesifik keçid müddəalarına uyğun olaraq Müfəttişlik MHBS 16 tətbiqində modifikasiya edilmiş yanaşmadan istifadə etdiyi üçün müqayisəli rəqəmlərin ümumi yekununun yenidən təqdimatına ehtiyac yaranmamışdır.

MHBS 9 "Maliyyə alətləri"

2014-cü ildə MUBSŞ 31 saylı "Maliyyə alətləri: Tanınma və ölçülmə" adlı standartı əvəz edən 9 saylı "Maliyyə alətləri" adlı standartı nəşr etdi. "Maliyyə alətləri" adlı 9 №-li MHBS, maliyyə aktivlərinin və öhdəliklərinin təsnifləşdirilməsini və ölçülməsini, dəyərsizləşmə və hedcinq əməliyyatlarının uçotunu əhatə edir. 9 saylı MHBS üzrə müddəalar 01 yanvar 2018-ci il tarixdən və ondan sonra başlayan dövrlər üçün qüvvəyə minmişdir. Hedcinq əməliyyatlarının uçotu istisna olmaqla, retrospektiv tətbiq tələb olunur, lakin müqayisəli rəqəmlərin dəyişdirilərək yenidən açıqlanması məcburi deyil.

9 №-li MHBS maliyyə alətlərinin iki ölçü kateqoriyası ilə qiymətləndirilməsini tələb edir: biri ədalətli dəyərlə ölçülmə, digəri isə amortizasiya olunmuş dəyərlə ölçülmə. Təyinetmə ilkin tanınmada edilir. Təsnifləşdirmə, müəssisənin öz maliyyə alətlərini və bu alətlərə səciyyəvi olan müqavilə üzrə pul vəsaiti axınlarını idarə etmək üçün tətbiq etdiyi biznes modelindən asılıdır.

Müfəttişlik 9 saylı MHBS-nin maliyyə hesabatlarına tam təsirini qiymətləndirir və 9 №-li MHBS-nı bütövlükdə qəbul etmişdir.

Qüvvədə olan digər mövcud standartlara edilən dəyişikliklərin maliyyə hesabatlarına əhəmiyyətli təsiri olmadığı üçün geniş şərhlərə ehtiyac duyulmur.

3.1.2. Dərc edilmiş, lakin 1 yanvar 2022-ci il tarixindən sonra başlayan maliyyə ili üçün qüvvəyə minməmiş və erkən qəbul edilməmiş yeni standartlar, düzəlişlər və şərhlər

Bu maliyyə hesabatları təsdiq edilən tarixə dərc edilmiş, lakin hələ qüvvəyə minməyən və Müfəttişlik tərəfindən erkən qəbul edilməmiş mövcud standartlara dəyişikliklər, yeni standartlar və şərhlər aşağıdakılardır:

1 saylı MHBS - "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının İlk dəfə tətbiqi"

Düzəliş məcmu valyuta çevrilməsi ilə bağlı fərqlərinin uçotu ilə bağlı əsas müəssisədən gec, ilk dəfə tətbiq edən törəmə müəssisəyə əlavə güzəştlər təmin edir. Dəyişiklik nəticəsində, əgər konsolidasiya prosedurları və əsas müəssisənin törəmə müəssisəni əldə etdiyi müəssisələrin birləşməsinin təsirləri üçün heç bir düzəliş edilmədikdə, 1 saylı MHBS-nin D16 (a)-dakı azadolmadan istifadə edən törəmə müəssisə, ana müəssisənin MHBS-yə keçid tarixinə əsasən, bütün xarici əməliyyatlar üçün məcmu valyuta çevrilməsi fərqlərini əsas müəssisənin konsolidə edilmiş maliyyə hesabatlarına daxil ediləcək balans dəyəri ilə ölçməyə icazə verir. Bu düzəliş, 1 saylı MHBS-nin D16(a) bəndini tətbiq etməyi seçən asılı və ya birgə müəssisələrə də tətbiq olunur.

9 aylı MHBS "Maliyyə Alətləri"

Düzəliş maliyyə öhdəliyinin tanınmasının dayandırılmasını qiymətləndirmək üçün "10 faiz" testini tətbiq edərkən haqları aydınlaşdırır. Bu haqlara yalnız borcalan və ya borcverən tərəfindən ödənilən və ya alınan haqlar, o cümlədən borcalanın və ya borcverənin digər tərəflərin adından ödədiyi və ya aldığı haqlar daxildir.

MHBS 16 "İcarə müqavilələri"

MHBS 16 "İcarə müqavilələri" standartına " Satış və geriyə icarə əməliyyatları zamanı icarə öhdəlikləri" düzəlişi tələb edir ki, satıcı-icarəyə götürən tərəf geriyə icarə əməliyyatlarından yaranan icarə öhdəliklərinin sonrakı tanınması zamanı istifadə hüququnun saxlanması ilə bağlı gəlir və itkiləri tanımır.

Yeni tələblər satıcı-icarəyə götürən tərəfə mənfəət və zərər hesabında icarə müqaviləsinə qismən və ya tam xitam verilməsi ilə bağlı yaranan hər hansı gəlir və ya itkiləri tanımaqda qadağa qoymur. Belə ki, əsas vəsaitlərin satılması və yenidən icarəyə götürülməsi əməliyyatında, satış əməliyyatı zamanı qazanılmış ümumi mənfəətin həmin istifadə hüququ olan əsas vəsaitə görə icarədar üzərində keçən kontrol hüququ faizi nisbətindəki hissəsi qədər mənfəətin məcmu gəlir və xərc hesabatına silinməsinin qarşısını alan heç bir məhdudiyyət qoyulmayıb.

Düzəliş 1 yanvar 2024-cü il və ya ondan sonrakı tarixdə başlayacaq hesabat ili üçün qüvvəyə minəcək və erkən tətbiq olunmasına icazə verilir.

MHBS 17 "Sığorta Müqavilələri"

MHBS 17 "Sığorta Müqavilələri" 18 may 2017-ci il tarixdə darc edilmişdir və ilkin olaraq tətbiqi 1 yanvar 2021-ci il və ya ondan sonrakı tarixdə başlayacaq hesabat ili üçün qüvvəyə minməsi və tətbiq olunması nəzərdə tutulmuşdur. Sonrakı 25 iyun 2020-ci il tarixli düzəliş ilə standartın tətbiqi 1 yanvar 2023-ci il və ya ondan sonrakı tarixdə başlayacaq hesabat ili üçün qüvvəyə minməsi və tətbiq olunması müəyyən edildi.

9 dekabr 2021-ci il tarixdə MHBS 17 və MHBS 9-un İlkin Tətbiqi ilə bağlı düzəliş edildi. Müqayisəli Məlumat (MHBS 17-yə Dəyişiklik) eyni vaxtda MHBS 17 və MHBS 9-u ilk dəfə tətbiq edən müəssisələrə maliyyə aktivi haqqında müqayisəli məlumatı təqdim etməyə icazə verir (əgər əvvəllər həmin maliyyə aktivinin ölçülməsi və təsnifləşdirilməsi ilə bağlı BMHS 9-n tələbləri tətbiq edilmişdirsə).

10 saylı MHBS Konsolidə Edilmiş Maliyyə Hesabatlarına və 28 saylı MUBS "Asılı və Birgə Müəssisələrə İnvestisiyalar – İnvestor və onun asılı və ya birgə müəssisəsi arasında aktivlərin satışı və ya yatırılması"-na düzəlişlər

Konkret olaraq, düzəlişlər göstərir ki, asılı müəssisə ilə əməliyyatda biznesi ehtiva etməyən törəmə müəssisənin nəzarətinin itirilməsi nəticəsində yaranan gəlir və ya zərərlər hansı ki yalnız əlaqəli olmayan investorların həmin asılı və ya birgə müəssisədəki maraqları həcmindədir, kapital metodundan istifadə etməklə uçota alınan birgə müəssisə ilə əsas müəssisənin mənfəətində və ya hesabatında tanınır. Eynilə, hər hansı keçmiş törəmə müəssisədə (asılı müəssisəyə çevrilmiş və ya kapital metodundan istifadə etməklə uçota alınan birgə müəssisəyə çevrilmiş) saxlanılan investisiyaların ədalətli dəyərdə yenidən qiymətləndirilməsi nəticəsində yaranan gəlir və zərərlər keçmiş əsas müəssisənin mənfəət və ya zərərində yalnız yeni asılı və ya birgə müəssisədə əlaqəli olmayan investorların maraqlarının həcmində tanınır.

Düzəlişlərin qüvvəyə minmə tarixi BMUSŞ tərəfindən hələ müəyyən edilməmişdir; lakin düzəlişlərin daha əvvəl tətbiqinə icazə verilir.

1 saylı MUBS-yə düzəlişlər "Maliyyə Hesabatlarının Təqdimatı–Öhdəliklərin Cari və Uzunmüddətli Təsnifatı"

23 yanvar 2020-ci il tarixdə dərc edilmiş 1 saylı MUBS-a düzəlişlər maliyyə vəziyyəti haqqında hesabatda öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təqdim edilməsini nəzərdə tutur, hər hansı aktivin, öhdəliyin, gəlirin və ya xərclərin tanınmasının məbləği və ya vaxtını, yaxud həmin maddələr haqqında açıqlanan məlumatları təqdim edir.

Dəyişikliklər öhdəliklərin qısamüddətli və uzunmüddətli kimi təsnifləşdirilməsinin hesabat dövrünün sonunda mövcud olan hüquqlara əsaslandığını aydınlaşdırır, təsnifatın təşkilatın öhdəliklərin ödənilməsini təxirə salmaq hüququndan istifadə edib-etməyəcəyinə dair gözləntilərin təsir etmədiyini göstərir, və hesabat dövrünün sonunda şərtlərə əməl edildiyi təqdirdə hüquqların mövcud olduğunu izah edir və hesablaşmanın pul vəsaitlərinin, kapital alətlərinin, digər aktivlərin və ya xidmətlərin qarşı tərəfə ötürülməsinə aid olduğunu aydınlaşdırmaq üçün "hesablaşma" anlayışını təqdim edir.

Düzəlişin ilkin olaraq 1 yanvar 2022-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün retrospektiv qaydada tətbiq edilməsi nəzərdə tutulmuşdu və erkən tətbiqinə icazə verilirdi. Lakin 15 iyul 2020-ci il tarixli düzəlişə əsasən dəyişiklik 1 yanvar 2023-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün retrospektiv qaydada tətbiq ediləcəkdir.

31 oktyabr 2022-ci il tarixdə əvvəlki 2020-ci ilin yanvar və iyuil ayında edilən düzəlişlərin tətbiqinin təxirə salınması da daxil olmaqla, öhdəliklərin qısamüddətli və uzunmüddətli kimi təsnifləşdirilməsinə dair 1 saylı MUBS-a-un tələblərinə əlavə düzəlişləri nəzərdən keçirilmişdir. Nəticədə əvvəlki və sonuncu düzəlişlər daxil olmaqla, düzəlişlərin 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün retrospektiv qaydada tətbiq edilməsi nəzərdə tutulur.

8 saylı MUBS Mühasibat Uçotu Siyasətləri, Mühasibat Təxminlərində Dəyişikliklər və Səhvlər – Mühasibat Uçotu Təxminlərinin Tərifinə Düzəlişlər

Düzəlişlər mühasibat uçotu qiymətləndirmələrində dəyişiklik anlayışını mühasibat təxminlərinin tərifi ilə əvəz edir. Yeni tərifə əsasən, mühasibat təxminləri "maliyyə hesabatlarında ölçülmə qeyri-müəyyənliyinə məruz qalan pul məbləğləridir"

Mühasibat uçotu təxminlərində dəyişiklik tərifi silindi. Bununla belə, BMUSŞ Standartda mühasibat uçotu təxminlərində dəyişikliklər konsepsiyasını aşağıdakı izahatlarla saxlamışdır:

- Yeni məlumat və ya yeni inkişaflar nəticəsində mühasibat uçotu qiymətləndirməsindəki dəyişiklik xətanın düzəldilməsi deyil
- Mühasibat uçotu təxminlərini hazırlamaq üçün istifadə edilən məlumat və ya ölçmə texnikasındakı dəyişikliyin təsiri, əgər əvvəlki dövr səhvlərinin düzəldilməsi nəticəsində yaranmırsa, uçot təxminlərində dəyişikliklərdir.

Düzəlişlər 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir, daha əvvəl tətbiq edilməsinə icazə verilməklə, həmin dövrün əvvəlində və ya ondan sonra baş verən uçot siyasətlərində və uçot təxminlərində qüvvədə olur.

1 saylı MUBS və MHBS üzrə Praktiki tövsiyələr 2 "Əhəmiyyətliliyə dair mülahizələrin formalaşdırılması"

Düzəlişlər uçot siyasətinin açıqlanması ilə bağlı 1 saylı MUBS -un tələblərini dəyişir. Düzəlişlər "əhəmiyyətli uçot siyasəti" termininin bütün hallarını "material uçot siyasəti məlumatı" ilə əvəz edir. Müəssisənin maliyyə hesabatlarına daxil edilmiş digər məlumatlarla birlikdə nəzərdən keçirildikdə, ümumi təyinatlı maliyyə hesabatlarının əsas istifadəçilərinin həmin maliyyə hesabatları əsasında qəbul etdikləri qərarlara təsir göstərməsi əsaslı şəkildə gözlənilsə, uçot siyasəti haqqında məlumat əhəmiyyətli hesab edilir.

1 saylı MUBS-un dəstəkləyici bəndləri, həmçinin qeyri-əhəmiyyətli əməliyyatlar, digər hadisələr və ya şərtlərlə əlaqəli uçot siyasəti məlumatlarının əhəmiyyətsiz olduğunu və açıqlanmasına ehtiyac olmadığını aydınlaşdırmaq üçün dəyişdirilir. Mühasibat uçotu siyasəti ilə bağlı məlumatlar, hətta məbləğlər əhəmiyyətsiz olsa belə, əlaqəli əməliyyatların, digər hadisələrin və ya şərtlərin xarakterinə görə əhəmiyyətli ola bilər. Bununla belə, əhəmiyyətli əməliyyatlar, digər hadisələr və ya şərtlərlə bağlı uçot siyasəti məlumatlarının heç də özü əhəmiyyətli deyil.

BMUSŞ həmçinin MHBS üzrə Praktiki tövsiyələr 2 Bəyanatında təsvir olunan "dörd addımlı əhəmiyyətlilik prosesinin" tətbiqini izah etmək və nümayiş etdirmək üçün təlimat və nümunələr işləyib hazırlamışdır.

1 saylı MUBS-a düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir, daha əvvəl tətbiq edilməsinə icazə verilir və perspektiv qaydada tətbiq edilir. MHBS Praktiki Bəyanat 2-yə düzəlişlər qüvvəyə minmə tarixi və ya keçid tələblərini ehtiva etmir.

12 saylı MUBS-a düzəlişlər Mənfəət Vergiləri – Vahid əməliyyatdan yaranan aktiv və öhdəliklərlə bağlı təxirə salınmış vergi

Düzəlişlər ilkin tanınma azadlığından əlavə bir istisna təqdim edir. Düzəlişlərə əsasən, müəssisə bərabər vergi tutulan və çıxılan müvəqqəti fərqlərə səbəb olan əməliyyatlar üçün ilkin tanınma azadlığını tətbiq etmir.

Tətbiq olunan vergi qanunvericiliyindən asılı olaraq, müəssisələrin birləşməsi olmayan və nə mühasibat, nə də vergi tutulan mənfəətə təsir göstərməyən əməliyyatda aktiv və öhdəliyin ilkin tanınması zamanı bərabər vergi tutulan və çıxılan müvəqqəti fərqlər yarana bilər. Məsələn, bu, icarənin başlama tarixində 16 saylı MHBS-ni tətbiq edən icarə öhdəliyinin və müvafiq istifadə hüququ aktivinin tanınması zamanı yarana bilər.

12 saylı MUBS-a düzəlişlərdən sonra cəmiyyətdən 12 saylı MUBS-da bərpa olunma meyarlarına tabe olan hər hansı təxirə salınmış vergi aktivinin tanınması ilə əlaqədar təxirə salınmış vergi aktivi və öhdəliyini tanıması tələb olunur.

BMUSŞ, həmçinin düzəlişlərin necə tətbiq olunduğunu izah edən 12 saylı MUBS-a illüstrativ nümunə əlavə edir. Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara şamil edilir. Bundan əlavə, ən erkən müqayisəli dövrün əvvəlində cəmiyyət aşağıdakıları tanıyır:

- Təxirə salınmış vergi aktivi (çıxılan müvəqqəti fərqin istifadə oluna biləcəyi vergi tutulan mənfəətin mövcud olacağı ehtimal edilən dərəcədə) və bütün çıxılan və vergi tutulan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi öhdəliyi:
  - İstifadə hüququ olan aktivlər və icarə öhdəlikləri
  - İstismardan çıxarma, bərpa və oxşar öhdəliklər və müvafiq aktivin dəyərinin bir hissəsi kimi tanınan müvafiq məbləğlər
- Düzəlişlərin ilkin olaraq həmin tarixdə bölüşdürülməmiş mənfəətin (və ya müvafiq olaraq kapitalın digər komponentinin) açılış balansına düzəliş kimi tətbiq edilməsinin məcmu təsiri

Düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir, daha erkən tətbiqə icazə verilir.

41 saylı MUBS "Kənd təsərrüfatı"

Düzəliş 41 saylı MUBS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul vəsaitlərinin hərəkətini istisna etməsi tələbini aradan qaldırır. Bu, 41 saylı MUBS-də ədalətli dəyərin ölçülməsini 13 saylı MHBS Ədalətli Dəyərin Ölçüsü tələbləri ilə daxili ardıcıl pul vəsaitləri və endirim dərəcələrindən istifadə etmək üçün uyğunlaşdırır və hesabat hazırlayanlara vergidən əvvəl və ya vergidən sonrakı pul vəsaitlərinin hərəkətindən və endirim dərəcələrindən ən çox istifadə etməyi müəyyən etməyə imkan verir.

Müfəttişlik bu standartlar, şərhlər və dəyişiklikləri qüvvəyə minmə tarixindən sonra başlayacaq ilk hesabat dövrü üçün uyğun olduqda öz uçot siyasətində tətbiq etməyi nəzərdən keçirir və standartlar, şərhlər və dəyişikliklərin maliyyə hesabatlarına təsirini qiymətləndirəcək.

3.2 Maliyyə alətlərinin ilkin tanınma və ölçülmə qaydaları. Müfəttişlik müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya öhdəliklərini öz maliyyə vəziyyəti haqqında hesabatında tanıyır. Maliyyə aktivlərinin və öhdəliklərinin adi yolla alınması və satılması zamanı əməliyyat hesablaşma günü tanınır. Sonradan əməliyyat və hesablaşma tarixləri arasında ədalətli dəyər üzrə ölçülən maliyyə alətlərinin adi yolla alınması zamanı əldə edilən alətlərin tanınması üçün istifadə edilən prinsiplərdən istifadə edilir.

Mənfəət və zərər hesabatı vasitəsilə ədalətli dəyərdə tanınan maliyyə alətləri istisna olmaqla, bütün digər maliyyə aktivləri və passivləri ilkin olaraq ədalətli dəyərlə ölçülür və bu alətlərin alınması və ya buraxılması ilə birbaşa bağlı olan xərclər onun balans dəyərinə əlavə edilir.

3.3 Pul vəsaitləri və onların ekvivalentləri. Pul vəsaitləri və onların ekvivalentləri maliyyə vəziyyəti haqqında hesabatda ilkin dəyəri (nominal) ilə əks etdirilir. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün pul vəsaitləri və onların ekvivalentləri nağd pul vəsaitlərindən, tələbli depozitlərdən, digər qısamüddətli və məlum olan pul vəsaitinə çevrilməyə hazır olan yüksək likvid investisiyalardan ibarətdir.

3.4 Əmlak və avadanlıq. Əmlak və avadanlıqlar ilkin dəyərindən yığılmış amortizasiya və yığılmış dəyərsizləşmə zərərləri (əgər varsa) çıxılmaqla tanınır. Son qalıq dəyəri (əgər varsa) nəzərə alınmaqla, aşağıdakı dərəcələrə uyğun olaraq bütün maddi aktivlər üçün amortizasiya aktivlərin ilkin dəyəri və faydalı ömür müddətinə uyğun olaraq düzxətli metodla hesablanır. Hər bir hesabat dövrünün sonunda əsas vəsaitlərin qalıq dəyərlərinə, istifadə müddətlərinə və köhnəlmənin hesablanma üsullarına yenidən baxılır, lazım gəldikdə düzəlişlər edilir.

Əmlak və avadanlığın amortizasiyası aşağıdakı normalara uyğun hesablanır:

Kompyüter və ofis avadanlığı	20%-dək
Maşın və avadanlıqlar	20%-dək
Nəqliyyat vasitələri	10%-dək
Digər əsas vəsaitlər	20%-dək

Əmlak və avadanlığın balans dəyərinə hər bir hesabat tarixində bərpa edilə bilən məbləğlərinin artıq müəyyən edilib-edilməməsini təyin etmək üçün yenidən baxılır və balans dəyərinin qiymətləndirilmiş bərpa edilə bilən məbləğindən artıq olduğu halda, aktivlərin dəyəri öz bərpa edilə bilən məbləğinə qədər aşağı salınaraq düzəliş edilir. Qiymətdən düşmə uyğun hesabat dövründə tanınır və digər inzibati və ya əməliyyat xərclərinə daxil edilir. Qiymətdən düşmə zərərinin tanınmasından sonra əmlak və avadanlığın amortizasiya xərci aktivlərin yenidən hesablanmış, gələcək dövrlərdə balans dəyərindən qalıq dəyərini (əgər varsa) çıxılmaqla, sistematik əsasda faydalı istifadə müddəti ərzində təyin etmək üçün düzəldilmişdir. Daxilolmalar üzrə amortizasiya aktivin istifadəyə verildiyi aydan hesablanır, aktivin silindiyi ayda isə amortizasiya hesablanmır. Əmlak və avadanlığın satışından mənfəət və ya zərərlər cari mənfəət və zərər hesabına daxil edilir, istisna olaraq, yenidən qiymətləndirmə artımı birbaşa bölüşdürülməmiş mənfəətə köçürülür. Müvafiq hallarda, aktiv ilə bağlı iqtisadi faydaların Müəssisəyə daxil olacağı və aktivin dəyəri etibarlı ölçülə bilinəcəyi ehtimalı olunduqda, sonrakı xərclər ayrıca aktivin balans dəyərinə əlavə olunur və ya ayrıca aktiv kimi tanınır. Bütün digər təmir və saxlanma xərcləri mənfəət və zərərə silinir.

3.5 Gəlirin tanınması.

Gəlirlər Müfəttişliyə yalnız əməliyyatlar ilə əlaqəli olan iqtisadi faydanın daxil olmaq ehtimalı yüksək olduqda tanınır. Əvvəllər gəlirə daxil edilmiş məbləğin yığılması barədə qeyri-müəyyənlik yarandıqda, toplanması mümkün olmayan və ya ödənilməsi ehtimal edilməyən vəsait əvvəllər tanınmış gəlir məbləğinə düzəliş kimi deyil, xərc kimi tanınır.

Gəlir alınmış və ya alınacaq vəsaitin ədalətli dəyəri ilə ölçülür. Gəlirin məbləği, alqı-satqı ilə bağlı hər hansı güzəşt məbləğləri və müəssisə tərəfindən edilmiş güzəştlər nəzərə alınmaqla, alınmış və ya alınacaq vəsaitlərin (əvəzləşdirmələrin) ədalətli dəyəri ilə ölçülür. Əməliyyat üzrə yaranan gəlir məbləği, müəssisə ilə alıcı və ya aktivin istifadəçisi arasında bağlanmış müqavilədə müəyyənləşdirilir.

Xidmətlərin göstərilməsi

Xidmətlərin göstərilməsi ilə bağlı olan əməliyyatın nəticəsinin etibarlı əsasda qiymətləndirilməsi mümkün olduqda tanınır. Əməliyyatın nəticəsi aşağıdakı şərtlər yerinə yetirildikdə düzgün qiymətləndirilə bilər:

a) gəlirin məbləğini etibarlı əsasda ölçmək mümkün olduqda;
b) müəssisəyə əməliyyatla bağlı iqtisadi faydanın daxil olması ehtimalı yüksək olduqda;
c) hesabatı tarixində əməliyyatın yekunlaşma mərhələsi etibarlı qiymətləndirilə bilindikdə; və
d) əməliyyatlar üçün çəkilmiş və əməliyyatı yekunlaşdırmaq üçün çəkiləcək xərclər etibarlı qiymətləndirilə bilindikdə

Hesabat tarixinə çəkilmiş məsrəflərə yalnız bu tarixə göstərilmiş xidmətləri əks etdirən məsrəflər aid edilir.

Malların satışı

Malların satışından gəlir bütün aşağıdakı şərtlər yerinə yetirildikdə tanınır:

a) müəssisə malların mülkiyyət hüququ ilə bağlı əhəmiyyətli riskləri və mükafatları alıcıya ötürdükdə;
b) müəssisə mülkiyyət hüququ ilə bağlı idarəetmədə artıq iştirak etmədikdə və satılmış mallara faktiki nəzarəti saxlamadıqda;
c) gəlir məbləğinin etibarlı ölçülməsi mümkün olduqda;
d) müəssisəyə əməliyyatla bağlı iqtisadi faydanın daxil olması ehtimalı yüksək olduqda; və
e) əməliyyatla bağlı çəkilmiş xərclər və çəkilməli xərclərin etibarlı ölçülməsi mümkün olduqda

Müəssisə mülkiyyət hüququ ilə bağlı olan əhəmiyyətli riskləri özündə saxladıqda əməliyyat satış hesab edilmir və bu əməliyyatdan yaranan gəlir tanınmır. Müəssisə mülkiyyət hüququ ilə bağlı olan yalnız əhəmiyyətsiz riskləri və mükafatları özündə saxladıqda bu cür əməliyyat satış hesab edilir və bu əməliyyatdan yaranan gəlir tanınır. Eyni əməliyyata və ya hadisəyə aid olan gəlir və xərclər eyni zamanda tanınır.

Faizlər, royaltilər və dividentlər

Müəssisənin aktivlərinin digər tərəflərin istifadəsindən yaranan faizlər, royalti və dividendlər formasında əldə olunan gəlir aşağıdakı bütün şərtlərin yerinə yetirildiyi təqdirdə, MUBS-un 18-ci standartda müəyyən edilmiş qaydada tanınır:

a) əməliyyat ilə bağlı iqtisadi faydaların müəssisəyə daxil olması ehtimalı olduqda;
b) gəlirin məbləğini etibarlı ölçmək mümkün olduqda.

Faizlər, 39 №-li MUBS-un 9-cu maddələrinə uyğun olaraq, effektiv faiz metodunu nəzərə almaqla tanınır. Royaltilər müvafiq müqavilənin mahiyyətinə uyğun olaraq, hesablama metodu əsasında tanınır. Dividendlər səhmdarlar tərəfindən bu dividendləri almaq hüququ əldə olunduqda tanınır.

3.7 Avans ödənişləri. Avans ödənişləri, nominal dəyərlə hesabatlarda göstərilir.

3.9 Ehtiyatlar. Müfəttişliyin keçmiş hadisələrin nəticəsində mövcud olan hüquqi və ya konstruktiv öhdəliyə malik olması, bu öhdəliklərlə bağlı iqtisadi resursların Müfəttişlik tərəfindən xərclənilməsinin labüd olduğu və öhdəliyin dəyərinin etibarlı bir şəkildə dəyərləndirilməsi mümkün olduğu hallarda ehtiyatlar,maliyyə hesabatlarında tanınır.

3.10 Nizamnamə fondu. Nizamnamə fonduna daxil edilən aktivlər faktiki maya dəyəri ilə tanınır. Adi səhmlər/paylar üzrə dividentlər kapitalda, elan edildiyi dövr üçün kapitalı azaldan maddə kimi təqdim edilir. Hesabat dövründən sonrakı dövrdə elan edilən dividentlər isə, 10 №-li MHBS "Hesabat dövründən sonra baş vermiş hadisələr" standartına uyğun olaraq hesabat dövründən sonrakı dövrdə baş vermiş hadisələr kimi təqdim edilir.

3.11 Cari və təxirə salınmış mənfəət vergisi. Dövr üzrə vergi xərci, cari və təxirə salınmış vergidən ibarətdir. Vergi, digər məcmu gəlirdə tanınan gəlir və ya xərc maddəsinə aid olan maddələr istisna olmaqla, məcmu gəlir hesabatında tanınır. Cari mənfəət vergisi xərci Azərbaycan Respublikasında qüvvədə olan vergi dərəcələri və qanunlar əsasında hesablanır.

Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergi və maliyyə uçotu üzrə balans dəyərləri və Müəssisənin istifadə edilməmiş vergi zərərləri arasında yaranan müvəqqəti fərqlər əsasında tanınır. Təxirə salınmış vergi öhdəliklərinin yerinə yetirildiyi və ya aktivlərin reallaşdırıldığı dövrdə tətbiq olunacağı gözlənilən vergi dərəcələri ilə hesablanır. Təxirə salınmış vergi həmçinin kapitalın tərkibində göstərildiyi halda, birbaşa kapitala daxil edilən əlaqəli maddələr istisna olmaqla, məcmu gəlir hesabatına daxil edilir. Təxirə salınmış vergi aktivinin balans dəyəri hər bir hesabat dövründə nəzərdən keçirilir və qiymətləndirmə ehtiyatının xalis balans dəyəri cari və ya gələcək vergi mənfəəti əsasında bərpa edilməyən yüksək məbləğə bərabər olan təxirə salınmış vergi aktivinə qarşı yönəlir.

3.12 Xarici valyuta ilə əməliyyatlar. Xarici valyuta ilə aparılan əməliyyatlar üzrə aktiv və öhdəliklər hesabat tarixinə mövcud olan məzənnə əsasında AZN ilə ifadə edilmiş əməliyyatın yerinə yetirildiyi günə qüvvədə olan valyuta məzənnəsi ilə hesablanır. Xarici valyuta ilə ifadə olunan müəyyən edilmiş pul aktivləri və öhdəlikləri hesabat tarixindəki alqı-satqı məzənnəsinə uyğun şəkildə Azərbaycan Manatına konvertasiya edilir. Bu əməliyyatlardan yaranan gəlir və zərər mənfəət və zərər hesabına daxil edilir.

Maliyyə hesabatlarının tərtib olunması tarixinə xarici valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

	31 dekabr 2023	31 dekabr 2022	31 dekabr 2021
USD 1= AZN	1.7000	1.7000	1.7000
EUR 1 =AZN	1.8766	1.8114	1.9265
GBP 1= AZN	2.1643	2.0477	2.2925

4. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

	31-dek-2023	31-dek-2022	31-dek-2021
Milli valyuta ilə banklarda cari hesablar	6,540,683	4,951,560	1,324,317
Xarici valyutda banklarda cari hesablar	23,295	9,461	-
Yekun	**6,563,978**	**4,961,021**	**1,324,317**

Yuxarıda 31 dekabr 2023, 2022 və 2021-ci il tarixə açıqlanan pul vəsaitləri və onların qalıqları pul vəsaitləri haqqında hesabata daxil edilmişdir.

31 dekabr 2023-cü il tarixinə pul vəsaitləri və onların ekvivalentləri "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətində saxlanılır.

5. DEBİTOR BORCLAR

Göstərilmiş xidmətlər üzrə debitorlar maliyyə hesabatlarında borcların nominal dəyərindən dəyərsizləşmə çıxıldıqdan sonra tanınır və açıqlanır:

	31-dek-2023	31-dek-2022	31-dek-2021
CAA Regulation Tax yığımlar üzrə	530,720	369,206	1,370,581
Civil Aviation Cargo Tax yığımları üzrə	265,830	232,904	225,098
Xüsusi icarə rəylərinin verilməsinə görə	255,005	156,038	1,175,551
Yekun	**1,051,555**	**758,148**	**2,771,230**
Ticarət və digər debitor borclarının tərkibində cəmi maliyyə aktivləri	1,051,555	758,148	2,771,230

6. DİGƏR CARİ AKTİVLƏR

31 dekabr 2023, 2022 və 2021-ci tarixlərə digər cari aktivlər aşağıdakılardan ibarətdir:

	31-dek-2023	31-dek-2022	31-dek-2021
Əvəzləşdirilən ƏDV	22,294	149,507	26,225
Verilmiş avanslar	7,934	5,454	177,549
Digər cari dövriyyə aktivləri	5,067	-	-
	35,295	**154,961**	**203,774**

7. TORPAQ, TİKİLİ VƏ AVADANLIQLAR

Əmlak və avadanlıqlar aşağıdakılardan ibarətdir:

	Nəqliyyat vasitələri	Maşın və avadanlıq	Digər avadanlıqlar	Yekun
İlkin dəyər				
31 dekabr 2021-ci il tarixə	**213,550**	**152,640**	**37,173**	**403,363**
Daxil olub	-	29,195	-	**29,195**
Xaric olub	-	-	-	**-**
31 dekabr 2022-ci il tarixə	**213,550**	**181,835**	**37,173**	**432,558**
Daxil olub	-	51,505	-	**51,505**
Xaric olub	-	-	-	**-**
31 dekabr 2023-cü il tarixə	**213,550**	**233,340**	**37,173**	**484,063**
Yığılmış amortizasiya				
31 dekabr 2021-ci il tarixə	**70,605**	**100,355**	**23,919**	**194,879**
İl üçün hesablanıb	21,355	23,909	**6,707**	**51,971**
31 dekabr 2022-ci il tarixə	**91,960**	**124,264**	**30,626**	**246,850**
İl üçün hesablanıb	21,355	36,470	**5,092**	**62,917**
31 dekabr 2023-cü il tarixə	**113,315**	**160,734**	**35,718**	**309,767**
Qalıq dəyəri				
31 dekabr 2021-cu il tarixə	**142,945**	**52,285**	**13,254**	**208,484**
31 dekabr 2022-ci il tarixə	**121,590**	**57,571**	**6,547**	**185,708**
31 dekabr 2023-cü il tarixə	**100,235**	**72,606**	**1,455**	**174,296**

Yuxarıda qeyd olunan əmlak və avadanlıqlar 31 dekabr 2023, 2022-ci və 2021-ci il tarixlərə girov qoyulmamışdır.

Məcmu gəlirlər hesabatında açıqlanan amortizasiya xərcləri aşağıdakı kimidir:.

	2023	2022
Əmlak və avadanlıqların köhnəlməsi	62,917	51,971
Qeyri-maddi aktivlərin köhnəlməsi	20,717	20,208
Yekun	**83,634**	**72,179**

8. QEYRİ-MADDİ AKTVİLƏR

Müfəttişliyin qeyri-maddi aktivlərinin hərəkəti aşağıdakı cədvəldə əks etdirilib:

	Proqram təminatı	Xüsusi təyinatlı lisenziyalar	Yekun
İlkin dəyər			
31 dekabr 2021-ci il tarixə	**201,612**	**463**	**202,075**
Daxil olub	-	-	-
Xaric olub	-	-	-
31 dekabr 2022-ci il tarixə	**201,612**	**463**	**202,075**
Daxil olub	-	1,145	**1,145**
Xaric olub	-	-	-
31 dekabr 2023-cü il tarixə	**201,612**	**1,608**	**203,220**
Yığılmış amortizasiya			
31 dekabr 2021-ci il tarixə	**57,225**	**70**	**57,295**
İl üçün hesablanıb	20,161	47	**20,208**
Xaric olanlara hesablanıb	-	-	-
31 dekabr 2022-ci il tarixə	**77,386**	**117**	**77,503**
İl üçün hesablanıb	20,161	556	**20,717**
Xaric olanlara hesablanıb	-	-	-
31 dekabr 2023-cü il tarixə	**97,547**	**673**	**98,220**
Qalıq dəyəri			
31 dekabr 2021-ci il tarixə	**144,387**	**393**	**144,780**
31 dekabr 2022-ci il tarixə	**124,226**	**346**	**124,572**
31 dekabr 2023-cü il tarixə	**104,065**	**935**	**105,000**

9. KREDİTOR BORCLAR

Müfəttişlik Nizamnaməsində təsdiq olunmuş fəaliyyət istiqamətləri üzrə hüquqi və fiziki şəxslərdən mal, iş və xidmətlər alır.

31 dekabr 2023, 2022 və 2021-ci il tarixlərdə başa çatmış illər üzrə alınmış mal, iş və xidmətlərə görə yaranan kreditor borclar aşağıdakı kimi olmuşdur:

	31-dek-2023	31-dek-2022	31-dek-2021
Kreditor borclar milli valyutada	1,342,482	897,387	914,366
Yekun	**1,342,482**	**897,387**	**914,366**
Ticarət və digər kreditor borclarının tərkibində cəmi maliyyə öhdəlikləri	1,342,482	897,387	914,366

10. DİGƏR CARİ ÖHDƏLİKLƏR

Sair cari öhdəliklər aşağıdakılardan ibarətdir:

	31 dekabr 2023	31 dekabr 2022	31 dekabr 2021
Əmək haqqı üzrə hesablaşmalar	126,259	126,948	85,067
Sosial ayırmalar üzrə hesablaşmalar	30,933	31,009	20,752
Yekun	**157,192**	**157,957**	**105,819**

11. NİZAMNAMƏ KAPİTALI

Müfəttişliyin 31 dekabr 2023, 2022 və 2021-ci il tarixlərə elan edilmiş Nizamnamə fondu aşağıdakı kimi olmuşdur.

	31-dek-2023	31-dek-2022	31 dek-2021
Nizamnamə fondu	1,000,000	1,000,000	1,000,000

Müfəttişliyin elan edilmiş Nizamnamə fondu nominal dəyəri 1,000,000 manat olmaqla 100% Azərbaycan Respublkasına məxsus olmuşdur.

	Mülkiyyətçi payı%	Nominal dəyəri AZN
Azərbaycan Respublikası	100%	1,000,000
Yekun	**100**	**1,000,000**

12. GƏLİRLƏR

Müfəttişliyin Nizamnaməsində təsdiq olunmuş fəaliyyət istiqamətləri üzrə hüquqi və fiziki şəxslərə xidmətlər göstərir. Xidmətlərin göstərilməsi ilə bağlı gəlirlər sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər kimi ayrıca uçota alınıraq qüvvədə olan Vergi Məcəlləsinə uyğun vergiyə cəlb edilir.

Aşağıdakı cədvəldə müştərilərlə müqavilələr üzrə gəlirlərin başlıca müqavilə şərtlərinə, əsas coğrafi bazara və icra öhdəliklərinin yerinə yetirilməsi vaxtı ilə bağlı gəlirlərin tanınmasına görə bölgüsü aparılmışdır:

	2023-cü il	2022-ci il
"CAA Regulation Tax" yığımı	3,819,824	2,756,205
"Civil Aviation Cargo Tax" yığımı	1,000,139	1,338,383
Cəmi yığımlar	**4,819,963**	**4,094,588**
Xüsusi icazə rəylərinin verilməsinə görə	1,416,665	1,317,107
Cəmi gəlirlər	**6,236,628**	**5,411,695**

Əsas coğrafi bazalar üzrə gəlirlərin təsnifatı aşağıdakı cədvəldə verilmişdir:

	2023-cü il	2022-ci il
Azərbaycan Respublkası	6,145,478	5,254,492
İqtsadi Əməkdaşlıq və İnkişaf Təşkilatı Ölkələri	54,813	139,199
Digər ölkələr	36,337	18,004
Cəmi gəlirlər	**6,236,628**	**5,411,695**

İcra öhdəliklərinin yerinə yetirilməsi vaxtına görə tanınma aşağıdakı cədvəldə əks olunmuşdur:

	2023-cü il	2022-ci il
Konkret vaxtda transfer edilmiş mallar və xidmətlər	**4,819,963**	4,094,588
Dövr ərzində transfer edilmiş mallar və xidmətlər	1,416,665	1,317,107
Cəmi gəlirlər	**6,236,628**	**5,411,695**

15 saylı MHBS müəssisənin müştəri ilə müqaviləni əldə etməsi və icra etməsi üçün çəkdiyi xərclərin açıqlamasını verməyini tələb edir. Müfəttişliyin fəaliyyətində bu cür xərclər olmadığı üçün müvafiq açıqlamalar hazırkı maliyyə hesabatlarında təqdim edilməmişdir. Eyni zamanda, Müfəttişlik müəyyən etmişdir ki, onun müştərilərlə müqavilələri əhəmiyyətli maliyyə komponentini nəzərdə tutmur və buna görə də, müvafiq açıqlamalar təqdim edilməmişdir. Aşağıdakı cədvəldə müştərilərlə müqavilələr üzrə debitor borcları və müqavilə üzrə öhdəliklər haqqında məlumat göstəilir:

	31-dek-2023	31-dek-2022	31-dek-2021
Debitor borclar	1,051,555	758,148	2,771,230

31 dekabr 2023-cü il tarixinə Müfəttişliyin orijinal gözlənilən müddəti bir ildən artıq olan heç bir icra öhdəliyi olmamışdır. Buna uyğun olaraq, 15 saylı MHBS-də göstərilən istisnadan istifadə edilməklə, icra öhdəlikləri haqqında heç bir məlumat açıqlanmamışdır.

13. DİGƏR GƏLİRLƏR VƏ XƏRCLƏR

Digər gəlirlərə Müfəttişliyin birbaşa biznes fəaliyyəti ilə bağlı olmayan gəlirlər daxildir. 2023 və 2022-ci il ərzində digər gəlirləri aşağıdakı kimi olmuşdur.

	2023	2022
Zərərin qarşılanması üçün sığortadan daxil olan vəsait	1,105	-
Xərc hesabına yaradılmış ehtiyatın azalması	740	-
Məzənnə fərqi	956	3,985
Yekun	**2,801**	**3,985**

Xərc hesabına yaradılmış ehtiyatın azalması 31 dekabr 2023-ü il tarixə hesablanmış ehtiyat məbləğinin əvvəlki hesabat tarixi ilə dəyişməsinin təsiridir.

14. XÜSUSİ İCAZƏ RƏYLƏRİNİN VERİLMƏSİ ÜZRƏ XİDMƏT HAQQI (AYIRMALAR)

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi ilə Müfəttişlik arasında bağlanılmış sazişə əsasən, birgə fəaliyyətin həyata keçirilməsi nəticəsində alınmış xidmətlər üzrə gəlirlərdən 30% məbləğdə xidmət haqqı rüblük hesablanır.

	2023	2022
Xüsusi icazə rəylərinin verilməsi üzrə gəlirlər	1,416,665	1,317,107
Birgə fəaliyyətə cəlb edilməyən xidmətlər üzrə gəlirlər	(6,865)	(3,022)
Birgə fəaliyyət üzrə cəmi gəlir	**1,409,800**	**1,314,085**
Sazişə görə xidmət haqqı %	30%	30%
Xüsusi icazə rəylərinin verilməsi üzrə gəlirlər üzrə ayırmalar	**422,940**	**394,226**

15. AGENT KOMİSSİYA HAQQI

"ASG Business Aviation" MMC-nin (daha əvvəl "Silk Way Business Aviation" MMC) Ground Handling Company filialı ilə Müfəttişlik arasında imzalanan müqaviləyə əsasən, müqavilənin həyata keçirilməsi çərçivəsində toplanmış "CAA Regulation Tax" və "Civil Aviation Cargo Tax" yığımının 5 (beş) faizini agent komissiya yığımı şəklində özündə saxlayır.

16. ƏMƏK HAQQI VƏ ONUNLA BAĞLI XƏRCLƏR

31 dekabr 2023 və 2022-ci il tarixdə başa çatmış il üçün əmək haqqı ilə bağlı xərclər aşağıdakı kimi olmuşdur.

	2023	2022
Əmək haqqı və sosial ayırmalar	2,076,036	1,888,622
Mükafatlar	518,596	663,037
İşçilərlə bağlı digər xərclər	142,369	220,964
Ezamiyyə xərcləri	169,396	121,328
İşçilərlə bağlı ödənilən rüsumlar	1,224	-
Yekun	**2,907,621**	**2,893,951**

17. İNZİBATİ XƏRCLƏR

31 dekabr 2023 və 2022-ci il tarixdə başa çatmış il üçün inzibati xərclər aşağıdakı kimi olmuşdur.

İnzibati xərclər	**2023**	**2022**
Təhlükəsizlik xidməti xərci	75,705	49,587
Ofis xərcləri	74,556	36,119
Təmizlik xidməti xərci	63,920	41,867
Bank komissiya xərci	16,690	16,396
Yanacaq xərcləri	15,140	21,808
Sığorta xərcləri	5,237	4,682
Peşəkar xidmətlər	4,200	148,174
Sair xərclər	17,883	4,886
Yekun	**273,331**	**323,519**

18. MƏNFƏƏT VERGİSİ

31 dekabr 2023, 2022 və 2021-ci il tarixlərdə başa çatmış illərdə Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğun olaraq mənfəət vergisinin dərəcəsi 20% olmuşdur. Təxirəsalınmış vergi anlayışı aktiv və öhdəliklərin maliyyə hesabat verməsi məqsədləri və vergiqoyma məqsədləri üçün açıqlanan dəyərləri arasındakı müvəqqəti fərqlərin vergi təsirini əks etdirir.

31 dekabr 2023, 2022 və 2021-ci tarixlərdə başa çatmış illər üçün aktivlərin və öhdəliklərin vergi məqsədləri üçün dəyəri ilə MHBS üzrə dəyəri arasında yaranan müvəqqəti fərqlər aşağıdakı kimi olmuşdur:

	31-dek-2023	31-dek-2022	31-dek-2023
Aktivlərin/gəlirlərin dəyərində yaranan	38,272	35,725	162,930
Öhdəliklərin/xərclərin dəyərində yaranan	17,935	3,105	5,735
Yaranan müvəqqəti fərqlərin xalis yekunu	56,207	38,830	168,665
Mənfəət vergisinin dərəcəsi	20%	20%	20%
Təxirəsalınmış vergi üzrə qalıq	**11,241**	**7,766**	**33,733**

31 dekabr 2023-cü və 2022-ci il tarixdə başa çatmış il üzrə vergiqoyma məqsədləri və hesabatvermə məqsədləri üçün hesablanan mənfəət arasındakı əlaqə aşağıdakı kimi izah edilir:

	2023	2022
Vergi məqsədləri üçün mənfəət/(zərər)	3,076,262	3,384,095
Mənfəət vergisinin dərəcəsi	20%	20%
Mənfəət vergisi (xərc)/Gəlir	(615,252)	(676,819)
Müvəqqəti fərqləri xalis təsiri	(3,474)	(1,019)
Maliyyə hesabatları üzrə mənfəət vergisi xə(xərc)/gəlir	**(618,726)**	**(677,838)**

19. ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ TƏHƏDDÜDLƏR

Kapital xarakterli xərclərlə bağlı şərti öhdəliklər. Müfəttişliyin mövcud əmlak və avadanlıqları ilə bağlı kapital xarakterli xərclər üzrə, cari əməliyyatlarla bağlı 31 dekabr 2023, 2022, 2021-ci il tarixlərdə müqavilələrdən yarana biləcək əhəmiyyətli şərti öhdəlikləri yoxdur.

Hüquqi proseslər. Normal biznes fəaliyyəti ilə əlaqədar olaraq müəyyən vaxtlarda Müfəttişliyə qarşı iddialar qaldırıla bilər.

Peşəkar məsləhətçilərdən alınmış məsləhətlərə və daxili qiymətləndirmələrə əsaslanaraq Müfəttişliyin rəhbərliyi hesab edir ki, əvvəlki dövrlərdə əmək haqqı ödənişləri və əmək qanunvericiliyinin pozulması halları ilə bağlı qaldırılmış və qaldırıla biləcək iddialarla əlaqədar əhəmiyyətli xərclər baş verə bilər.

Lakin hesabat tarixinə məhkəmədə hüquqi proseslər davam etdiyi üçün və etibarlı qiymətləndirmələr aparmaq mümkün olmağı üçün müvafiq olaraq maliyyə hesabatlarında hüquqi risklərlə əlaqədar ehtiyatlar yaradılmamışdır.

20. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Müfəttişliyin əsas maliyyə öhdəliklərinə ticarət və digər kreditor borcları daxildir. Bu maliyyə öhdəliklərinin əsas məqsədi Müfəttişliyin əməliyyatlarını maliyyələşdirməkdir. Müfəttişliyin əsas maliyyə aktivlərinə onun birbaşa fəaliyyətindən əldə etdiyi pul vəsaitləri və onların ekvivalentləri və ticarət və digər debitor borcları daxildir. Müfəttişliyin adi fəaliyyət gedişində o, müxtəlif maliyyə risklərinə məruz qalır: bazar riski, kredit riski və likvidlik riski.

Müfəttişlikdə risklərin idarə edilməsi proqramı maliyyə bazarlarının qeyri-müəyyənlini nəzərə alaraq Müfəttişliyin maliyyə nəticələrinə potensial mənfi təsirləri minimallaşdırmağa çalışır.

Risklərin idarə edilməsi Müfəttişliyin rəhbərliyi tərəfindən Müfəttişliyin əməliyyat vahidləri ilə sıx əlaqədə həyata keçirilir. Rəhbərlik riskləri minimal qəbul edilən səviyyəyə gətirmək üçün bütün lazımi addımları atır.

Bazar riski. Bazar riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul axınlarının bazar qiymətlərindəki dəyişikliklər səbəbindən dəyişkən olacağı riskidir. Müfəttişliyin məruz qaldığı bazar riskinə əsasən faiz dərəcəsi riski və valyuta riski aiddir.

Faiz dərəcəsi riski. Müfəttişlik bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. 31 dekabr 2022-ci tarixinə Müfəttişlik dəyişən faizli qeyri-kommersiya maliyyə aktiv və öhdəliklərinə malik olmadığına görə əhəmiyyətli dərəcədə faiz dərəcəsi riskinə məruz qalmamışdır.

Xarici vayuta riski.

Valyuta riski ilə əlaqədar rəhbərlik valyuta təsirinə məruz qalma səviyyəsi üzrə limitlər təyin edir. Mövqelərə nəzarət edilir.

Xarici valyuta mübadiləsi riski gələcək kommersiya əməliyyatlarının Müfəttişliyin funksional valyutası olmayan valyutada ifadə edilməsi zamanı meydana gəlir.

Rəhbərlik Müfəttişliyin funksional valyutasına qarşı xarici valyuta mübadiləsi riskini idarə etməsini tələb edən siyasət hazırlamışdır.

31 dekabr 2023-cü, 2022-ci və 31 dekabr 2021-ci il tarixlərinə Müfəttişliyin maliyyə aktiv və öhdəliklərinin valyutalar üzrə bölgüsü aşağıdakı cədvəldə göstərilmişdir:

31 dekabr 2023

	AZN	EUR	Cəmi
Maliyyə aktivləri			
Pul vəsaitləri və onların ekvivalentləri	6,540,683	23,295	6,563,978
Ticarət və digər debitor borcları	1,051,555	-	1,051,555
	7,592,238	**23,295**	**7,615,533**
Maliyyə öhdəlikləri	-	-	
Ticarət və digər kreditor borcları	1,342,482	-	1,342,482
	1,342,482	-	**1,342,482**
Xalis valyuta mövqeyi	**6,249,756**	**23,295**	**6,273,051**

31 dekabr 2022

	AZN	EUR	Cəmi
Maliyyə aktivləri			
Pul vəsaitləri və onların ekvivalentləri	4,951,560	9,461	4,961,021
Ticarət və digər debitor borcları	758,148	-	758,148
	5,709,708	**9,461**	**5,719,169**
Maliyyə öhdəlikləri	-	-	
Ticarət və digər kreditor borcları	897,387	-	897,387
	897,387	-	897,387
Xalis valyuta mövqeyi	**4,812,321**	**9,461**	**4,821,782**

31 dekabr 2021-ci il

	AZN	EUR	Cəmi
Maliyyə aktivləri			
Pul vəsaitləri və onların ekvivalentləri	1,324,317	-	1,324,317
Ticarət və digər debitor borcları	2,771,230	-	2,771,230
	4,095,547	-	**4,095,547**
Maliyyə öhdəlikləri			
Ticarət və digər kreditor borcları	914,366	-	914,366
	914,366	-	914,366
Xalis valyuta mövqeyi	**3,181,181**	-	**3,181,181**

Aşağıdakı cədvəl mənfəət və ya zərər və kapital maddələrinin bütün digər amillərin sabit qaldığı şəraitdə hesabat dövrünün sonuna tətbiq edilmiş valyuta məzənnələrindəki mümkün dəyişiklikliyə qarşı həssaslığını əks etdirir

	AZN/EUR (10%)	AZN/EUR (10%)	AZN/EUR (+10%)
	31 dekabr 2023-cü il	**31 dekabr 2022-ci il**	**31 dekabr 2021-ci il**
Mənfəət və ya zərərə təsiri	2,330	946	-
Kapitala təsiri	2,330	946	-

Kredit riski. Kredit riski qarşı tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirmədiyi təqdirdə, Müfəttişliyin maliyyə itkisi ilə üzləşəcəyi riskdir. Müfəttişliyin kredit riskinə məruz qalan maliyyə alətləri əsasən ticarət debitor borclarıdır. 31 dekabr 2023-cü, 2022-ci və 31 dekabr 2021-ciil tarixlərinə Müfəttişliyin dəyərsizləşmiş debitor borcları mövcud olmamışdır.

Müvafiq olaraq dəyərsizləşmə üzrə ehtiyat tanınmamışdır.

Likvidlik riski. Likvidlik riski aktiv və öhdəliklərin geri ödənilmə tarixlərinin uyğun gəlmədiyi hallarda

mövcud olur. Müfəttişlikin 31 dekabr 2023-cü, 2022-ci, 31 dekabr 2021-ci il tarixlərinə likvidlik çatışmazlığı üzrə təhlili aşağıdakı cədvəldə göstərilmişdir:

31 dekabr 2023-cü il

	1 ayadək	1 aydan 1 ilədək	1 ildən artıq	Cəmi
Maliyyə aktivləri				
Pul vəsaitləri və onların ekvivalentləri	6,563,978	-	-	6,563,978
Ticarət və digər debitor borcları	-	1,051,555	-	1,051,555
	6,563,978	**1,051,555**	**-**	**7,615,533**
Maliyyə öhdəlikləri	-	-	-	
Ticarət və digər kreditor borcları	-	1,342,482	-	1,342,482
	-	1,342,482	-	1,342,482
31 dekabr 2023-cü il tarixinə likvidlik çatışmazlığı	6,563,978	**(290,927)**	-	**6,273,051**
31 dekabr 2023-cü il tarixinə məcmu likvidlik çatışmazlığı	**6,563,978**	**6,273,051**	**-**	**6,273,051**

31 dekabr 2022-ci il

	1 ayadək	1 aydan 1 ilədək	1 ildən artıq	Cəmi
Maliyyə aktivləri				
Pul vəsaitləri və onların ekvivalentləri	4,961,021	-	-	4,961,021
Ticarət və digər debitor borcları	-	758,148	-	758,148
	4,961,021	758,148	-	**5,719,169**
Maliyyə öhdəlikləri	-	-	-	
Ticarət və digər kreditor borcları	-	897,387	-	897,387
	-	897,387	-	897,387
31 dekabr 2022-ci il tarixinə likvidlik çatışmazlığı	4,961,021	**(139,239)**	-	**4,821,782**
31 dekabr 2022-ci il tarixinə məcmu likvidlik çatışmazlığı	4,961,021	**4,821,782**	**-**	**4,821,782**

31 dekabr 2021-ci il

	1 ayadək	1 aydan 1 ilədək	1 ildən artıq	Cəmi
Maliyyə aktivləri				
Pul vəsaitləri və onların ekvivalentləri	1,324,317	-	-	1,324,317
Ticarət və digər debitor borcları	-	2,771,230	-	2,771,230
	1,324,317	2,771,230	-	**4,095,547**
Maliyyə öhdəlikləri				
Ticarət və digər kreditor borcları	-	914,366	-	914,366
	-	**914,366**	-	**914,366**
31 dekabr 2021-ci il tarixinə likvidlik çatışmazlığı	1,324,317	**1,856,864**	-	**3,181,181**
31 dekabr 2021-ci il tarixinə məcmu likvidlik çatışmazlığı	1,324,317	**3,181,181**	-	**3,181,181**

21. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir:

- 1-ci səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş)
- 2-ci səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlərdən yaranan) müşahidə edilə bilən əhəmiyyətli məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və
- 3-cü səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən məlumatlar) daxildir.

Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür.

Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi bütövlükdə ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.

31 dekabr 2023-cü il, 2022-ci və 2021-ci il tarixlərinə maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərdə tanınan maliyyə alətləri mövcud olmamışdır.

Ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan aktiv və öhdəliklər

Üç aydan artıq ödəmə müddəti olan aktiv və öhdəliklərin balans dəyəri belə maliyyə aktivlərinin ödəmə müddətlərinin nisbətən qısa olması ilə əlaqədar olaraq təxminən onların ədalətli dəyərini əks etdirir. Sair maliyyə alətlərinin ədalətli dəyəri oxşar kredit riskinə və ödəmə müddətinə malik olan yeni alətlər üçün ilin sonuna müvafiq bazar dərəcələri ilə diskontlaşdırılmış gələcək pul axınlarının cari dəyəri kimi hesablanır.

Rəhbərlik hesab edir ki, maliyyə hesabatlarında tanınmış maliyyə aktiv və öhdəliklərinin balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir və ədalətli dəyər iyerarxiyasının 2-ci Səviyyəsinə aid edilmişdir.

22. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR VƏ QALIQLAR

Əlaqəli tərəflərlə əməliyyatları və qalıqları müəyyən edərkən münasibətin sadəcə hüquqi formasına deyil, münasibətin mahiyyətinə əhəmiyyət verilir.

31 dekabr 2023 və 2022-ci ildə Müfəttişliyin əlaqəli tərəflərlə aşağıdakı əməliyyatları olmuşdur:

	2023-cü il	2022-ci il
Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi	422,940	394,226
Rəhbərliyin əmək haqqı	191,638	242,808
Rəhbərliyin əmək haqqı ilə bağlı sosial xarakterli ayırmalar	38,587	69,544

31 dekabr 2023-cü, 2022-ci və 2021-ci il tarixlərdə Müfəttişliyin əlaqəli tərəflərlə aşağıdakı qalıqları olmuşdur:

	31-dek-2023	31-dek-2022	31-dek-2021
Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi	1,206,224	870,283	573,401

23. HESABAT TARİXİNDƏN SONRAKI HADİSƏLƏR

Müfəttişliyin rəhbərliyi likvidlik statusuna nəzarət edir, gələcək likvidliyin və maliyyə axınlarının təhlilini aparır, bu riskləri davamlı olaraq qiymətləndirir. Müfəttişliyin rəhbərliyi kənar amillərin gələcək təsirlərini etibarlı və obyektiv qiymətləndirmək mümkün olmadığı hallarda hesabat tarixlərinə həmin amillərin təsirini düzəliş tələb etməyən hadisələr kimi təsnifləşdirir.

Maliyyə hesabatları hesabat tarixlərinə mövcud olan şərtlər və amillər nəzərə alınmaqla fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmışdır və qeyd olunan amillərlə bağlı maliyyə vəziyyəti və maliyyə nəticələri haqqında hesabatlarda düzəlişlər edilməmişdir.

Hesabat tarixindən hazırkı maliyyə hesabatlarının dərc edilməsi tarixinədək olan dövr ərzində açıqlama üçün heç bir əhəmiyyətli hadisə baş verməmişdir